# O QATAR GERİ DÖNƏN DEYİL



Ramiz
MƏMMƏDZADƏ

**Bu bir ömürdə elə hadisələr, əhvalatlar olur ki, onu yeri gəldikcə danışmasan, deməsən, yazmasan, xatırlamasan, tanış-bilişə söyləməsən, sonra gec olar, unudular, yaddan çıxar...**

Sənin haqqın yoxdur ki, çoxları üçün vacib, zəruri ola biləcək fakt və hadisələrin yayılmasının qarşısını alasan və düşünəsən ki, sənin bildiyin yetər, başqaları bilməsə də keçər...

### Ölkəmizin çoxəsrlik inkişafı

***dövründə misilsiz xidmətləri olmuş, əslində həyatımızın tərəqqisinin, müstəqilliyimizin bərqərar olmasının bünövrəsini qoymuş nəhəng bir dahinin - Heydər Əliyevin yaradıcı, qurucu həyatının hər günü bir tarixdir, örnəkdir, məktəbdir. O illərdə, yəni keçən əsrin 70-80-cı illərində respublikamızın sosial-iqtisadi yüksəliş illərinin əsasında kompleks şəklində aparılan ideoloji, təşkilati tədbirlərin çox müsbət nəticələrinin şahidi olmuşuq. Əslində ideoloji iş, necə deyərlər bulaq kimi qaynayırdı. Mükəmməl struktur vardı, idarə olunurdu və s.***

Bu gün uzun illər siyasi tərbiyə problemləri ilə məşğul olmuş bir adam kimi deyə bilərəm ki, o illərdə Moskvadan göndərilmiş, tövsiyə edilmiş göstərişləri bir tərəfə qoyub əsasən, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin partiya qurultaylarında, plenumlarında, konfranslarında, partiya-təsərrüfat fəallarının yığıncaqlarında, ictimai təşkilatların məclislərində, zona müşavirələrində, bir sözlə bütün mühüm tədbirlərdə çıxışları bir qayda olaraq dönə-dönə öyrənilirdi.

***Müdrik rəhbərimiz şəxsən özü də bir təbliğatçı kimi əmək kollektivləri qarşısında çıxış etməkdən zövq alardı. O vaxtlar respublikada siyasi təhsil proseslərinə rəhbərlik edən Vəli Məmmədovla bərabər mən də birinci katibimizin Nəriman Nərimanov adına Neft və Qazçıxarma İdarəsindəki məşğələsində iştirak etmişdik.***

O dövrün dəbdə olan "Təşviqat qatarı" yaddan çıxmayıb.

Elm və mədəniyyət xadimləri, bəstəkarlar, yazıçılar, şairlər, rəssamlar, tanınmış əmək adamları, jurnalistlər rayonlara, şəhərlərə səfərə çıxır, əmək kollektivlərində görüşlər keçirilir, adamlar arasında sıx ünsiyyət yaranır, əlaqələr möhkəmlənirdi. Yeni şerlər yazılır, mahnılar bəstələnir, rəsm əsərləri çəkilirdi və s. Onlarla misal gətirmək olar.

Respublikamızda geniş vüsət almış məhsul bayramları əsl xalq şənliklərinə, xoş ovqatlı bayramlara çevrilmişdi.

***Yox, siz elə bilməyin ki, yaxın keçmişdəki olmuşları, əhvalatları, bir sıra kütləvi tədbirləri nastolji bir həsrətlə yada salıb heyfislənirəm, yox... O qatar keçib getdi, bir daha geri dönməz... O vaxtların ab-havası bir başqaydı, kollektiv təsərrüfatlar vardı, gəlirgətirən sahələr vardı, kənd yerlərində əkilməyən torpaq tapılmazdı... Nə isə...***

Ötən əsrin 70-ci illəri həm də respublikamızda pambıqçılığın inkişafı diqqət mərkəzindəydi, əhalinin əksəriyyəti pambıq planının yerinə yetirilməsinə səfərbər edilərdi, kənd rayonlarının fəaliyyətinə həm də pambıqçılığın inkişafındakı nailiyyətlərə görə qiymət verilərdi və s. Respublikamızın rəhbəri də əsasən hər il avqust-sentyabr aylarında zonalar üzrə pambıqçılığa həsr edilmiş müşavirələr keçirərdi.

### Ulu Öndərin iştirakı ilə

belə bölgə müşavirələrinin biri də 19 iyul 1979-cu ildə İmişli rayonunda keçirilmişdir. O dövrdə İmişli Rayon Partiya Partiya Komitəsinin birinci katibi işləmiş rəhmətlik Qadir İsmayılzadənin mənə söylədiklərindən:

***- Rayon mərkəzində keçirilmiş ümumi yığıncaqdan sonra bütün heyətlə - Bakıdan və rayonlardan gəlmiş qonaqlarla birlikdə Şahverdili kəndinə, Pənah Həsənovun briqadasına getdik. Sosialist Əməyi Qəhrəmanı Pənah Həsənov rayonumuzun fəxri idi.***

Heydər Əliyeviç hər şeyə diqqətli idi.

Uzun qırmızı parçanın üstünə ağ hərflərlə yazılmış "Xoş gəlmişsiniz yoldaş H.Əliyev!" plakatına baxdı. Hiss etdim ki, bu "xoşgəldindən" onun xoşu gəlmədi.

Mən özüm də pərt oldum, niyə "yoldaş H.Əliyev!" yazıblar, əslində tam şəkildə ad-familiya yazılmalıydı: "yoldaş Heydər Əliyev!" Ürəyimdə raykom işçilərini qınadım.

Qadir müəllimin sözünü yarımçıq qoyub, yeri gəlmişkən, onu da deyim ki, ildən-ilə işini təkmilləşdirən, daha dəyərli qanunlar qəbul edən, tərkibi müasir tələblər səviyyəsinə yüksəlməkdə olan hörmətli Milli Məclisimizin yaraşıqlı iclas zalındakı divarda "Azərbaycanda hakimiyyətin mənbəi xalqdır!" H.Əliyev yazılıb, niyə "Heydər Əliyev" yazılmayıb, sual doğurur....

Hə, Qadir müəllim danışırdı ki, Heydər Əliyeviç tarla düşərgəsindəki "Qırmızı guşə"yə yaxınlaşdı, stolun üstündə yeni qəzetlər, jurnallar, kitablar... O, birdən əyilib bir kitabı əlinə aldı, baxdı:

***- Hələ o bir şeir də yazır? - deyə əsəbi şəkildə soruşdu.***

Mən ayaq üstə quruyub qalmışdım. Heç nə başa düşmürdüm. Yazıçı Əkrəm Əylisli irəli çıxıb kitabı Heydər Əliyeviçdən alıb baxdı və gülümsəyərək dedi:

***-Yox, Heydər Əliyeviç bu, Mərkəzi Komitənin plenumunda vəzifədən azad etdiyiniz katibin kitabı deyil, tamam başqa bir adamdır. Bizim qələm yoldaşımızdır, çoxdan tanıyıram.***

***- Hə, - dedi birinci katibimiz.***

Hamımız təəccüblənmişdik, axı necə ola bilərdi ki, bir müddət əvvəl Mərkəzi Komitənin işdən çıxarılmış katibinin kitabı "Qırmızı guşə"yə qoyulsun... Sən demə, sizin kitabınız imiş, ay Ramiz müəllim.

Bu əhvalatı gülə-gülə danışdı mənə maraqlı, həssas və xeyirxah bir insan olan Qadir İsmayılzadə.

Həmin dövrdə İmişli Rayon Komsomol Komitəsinin birinci katibi işləmiş Elmira Qasımova deyir ki, o böyük şəxsiyyətlə aramızda olan kiçik bir söhbəti heç vaxt unutmaram:

***- Rayon partiya komitəsinin ideoloji sahə üzrə katibi Gözəl xanım Səfərova ilə birlikdə qonaq otağında çay süfrəsinin ətrafındaydıq. Heydər Əliyeviçlə gələnlərdən bir nəfər bizə yaxınlaşıb rəhbərin su içmək istədiyini dedi. Bilirdik ki, raykomun birinci katibi Qadir İsmayılzadə su tədarükü görmüşdü - Şuşadan, məşhur İsa bulağından iki böyük qabda su gətizdirib soyuducuya qoydurmuşdu.***

Suyu Heydər Əliyeviçə özüm təqdim etdim.

Yayın bu qızmarında İsa bulağının bal kimi dadlı sərin suyundan içən rəhbərimiz dedi:

***- Bəh-bəh, nə dadlı sudur bu su.***

Mən tələsik dilləndim:

***- İsa bulağından gətirmişik, Heydər Əliyeviç.***

### İllər keçdi,

1995-ci ildə mən Milli Məclisin üzvü olduğum günlərdə bir qrup qadın deputatlarla görüşdə Ulu Öndər üzünü mənə tutub dedi:

***-Hə, komsomol, indi İsa bulağından su gətizdirə bilmirsiniz, darıxmayın, gün gələr İsa bulağının suyundan yenə içərik darıxmayın..***

İndi həmin vaxt gəlib çatıb. Qarabağ, Şuşa, İsa bulağı yolumuzu gözləyir. Tam əmin-amanlıq yaranan kimi yəqin ki, may ayında, istəkli Ulu Öndərimizin doğum günü ərəfəsində şəxsən özüm gedəcəyəm İsa bulağına, o bulağın doğma suyundan Bakıya gətirib unudulmaz rəhbərimizin məzarı üstünə səpəcəyəm, əhd eyləmişəm.

### "İtgin gəlin" tapılmır

Bir əhvalat barədə - el arasında geniş şöhrət qazanmış yazıçı Əlibala Hacızadənin o illərdə məşhur olmuş "İtgin gəlin" kitabı ilə əlaqədar baş vermiş əhvalat barədə nə vaxtsa mətbuatda oxumuşdum.

***Bununla belə, daha dəqiq məlumat almaq məqsədilə uzun illər Saatlı rayonunda aparıcı rəhbər vəzifələrdə çalışmış ailəvi dostum, səmimi insan Hacı Seyidağa Kazımovdan xahiş etdim ki, 1980-cı ilin oktyabr ayında Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin Saatlının Mir Bəşir Qasımov adına kolxoza səfərindən bir az geniş danışsın.***

Seyidağa müəllim söylədi ki, Ulu Öndər həmin günlərdə kolxozun qabaqcıl pambıqçılıq briqadiri olan Lələkişi Qədimovun briqadasında işləyən pambıqçı qızlarla söhbət etdi. Soruşdu ki, nəyə ehtiyacınız var, maşına, mebelə, xalçaya, soyuducuya, deyin təşkil edək.

Qızlardan biri deyir ki, yoldaş Əliyev, cehizlik üçün bir xalça olsaydı, alardım, pulum var.

Heydər Əliyev tapşırıq verir:

***- Əlisahib (Saatlı Rayon Partiya Komitəsinin birinci katibi, xalq arasında kifayət qədər hörmət qazanmış, işgüzar bir insan idi) raypoya (ticarət təşkilatı) göstəriş ver, xalça hazırlasın, pulunu da kolxoz sədri verər.***

Sonra qızlardan biri irəli durub deyir ki, yoldaş Əliyev, yazıçı Əlibala Hacızadənin "İtgin gəlin" kitabı çıxıb, amma tapılmır, oxumaq üçün növbəyə dayanmışıq. Siz tapşırsanız o kitabdan yenə də buraxarlar, biz də alıb oxuyarıq.

Pambıqçı qızın bir təklifi də ölkə başçısının xoşuna gəldi.

**Tezliklə "İtgin gəlin" romanı kütləvi tirajla nəşr edildi. Raykomun birinci katibi Əlisahib Babayevin göstərişi ilə həmin kitab rayonun bütün pambıqçı qızlarına pulsuz paylanıldı.**

**Şüvələn,
18 fevral, 2021-ci il**